# Fəxrəddin Sərrastın şeirləri



## Şəhid əsgər

Şəhid əsgər cəbhələri yıxanda,
Polad kimi qollarına qurbanam.
Diş-dırnaqnan qayaları çıxanda,
Qan-qadalı əllərinə qurbanam.

Nərə çəkib meydanlara atıldın,
Döyüşlərdən, döyüşlərə qatıldın,
Od-alovlu çarpışlardan qurtuldun,
Zəfərləşən yollarına qurbanam.

Ellər səni gecə-gündüz gözlədi,
Nişanlın da hər anını izlədi,
Atan, anan həsrətindən sızladı,
O qap-qara tellərinə qurbanam.

Bu torpaqda Vətəni sən yaratdın,
Qarabağı xilas etdin, yaşatdın,
Yağıların axırına sən çıxdın,
O uğurlu illərinə qurbanam.

Fəxr edirik səni biz də görmüşük,
Səninlə bir vaxtda ömür sürmüşük.
Zəfərləri xalqımıza vermişik,
Azadlaşan ellərinə qurbanam.

## Vətən sevgisi ilə yaşayan insan

*Gəncə Dövlət Universitetinin*
*Humanitar məsələlər üzrə prorektoru,*
*Qərbi azərbaycanlı*
*Gülsüm xanım Fətəliyevaya*

Elin qeyrətini sən çəkə-çəkə,
Həyat yollarında tər tökə-tökə,
Namusla, qeyrətlə yurd tikə-tikə,
Neçə insanlara ürək, can oldun,
Bitib-tükənməyən birümman oldun.

Vətən torpağını müqəddəs bildin,
Ömrünü, gününü qurban da verdin,
Hünərli-qeyrətli bir ömür sürdün,
Həmişə ellərnən qəlbin döyündü,
Qədrini bilənlər sənlə öyündü.

Ellərin dərdinə hey yana-yana,
Ömrünü həsr etdin Azərbaycana,
Bir yandan alimsən, bir yandan ana,
Tomristək, Həcərtək qeyrətin vardır,
Sənin tək olanlar nə bəxtiyardır.

## Göygöl

Neçə tarixlərə şahidlik etdin,
Kəpəzin aynası səfalı Göy göl.
Neçə nəsillərlə yanaşı getdin,
Haqqa-ədalətə vəfalı Göy göl.

Kəpəzin qarıdır saçda ağlığın,
Mətin duruşundur elə bağlığın,
İnsana ruh verir gözəl varlığın,
Sağalmaz dərdlərə şəfalı Göy göl.

Elə ki, yaz gəlir açılır güllər,
Buludlar qaynaşır, axışır sellər,
Gəlir tamaşana nə qədər ellər,
Nazlı gəlin kimi ədalı Göy göl.

Qalib Qarabağın şahidisən sən,
Şükür sən özün də zəfər görürsən,
Gələn nəsillərə müjdə verirsən,
Xoş sözlü, söhbətli sədalı Göy göl.

## Yurd həsrəti

Qərbi Azərbaycanın Vedi rayonunun
Yellicə kəndini yenidən xatırladım

Ey doğma torpağım, ey gözəl yurdum,
Görüşüb üzünü öpə biləydim.
Bir vaxtlar qoynunda min büsat qurdum,
Yolunu, izini öpə biləydim.

Yığışıb toylara birgə gedərdik,
Oynayıb, oxuyub şadlıq edərdik.
Könüldən-könülə kama yetərdik,
Oğlunu, qızını öpə biləydim.

Nə oldu ordakı gözəl büsatlar,
Tamam viran oldu o xoş həyatlar.
İndi dövran edir o yurdda yadlar,
Ağlayan gözünü öpə biləydim.

Elsiz, obasız heç insan olmaz,
Olsa da orada bir kəs də qalmaz.
Könül əzabları heç vaxtı solmaz,
Sözünü, özünü öpə biləydim.

**2018.**

## Sənsizlik

*Neçə gündür ustadım*
*Qərib Mehdini görmürəm*

Harda qalıbdır mənim qardaşım,
Bütün aləm mənə solğun görünür.
Sənə əl çatmayır, ürək sirdaşım,
Fikrim aşıb-daşır, çılğın görünür.

Sənsiz bu yerlərdə yalqız gəzirəm,
Ayrılıq dərdinə çətin dözürəm.
Özüm də özümə əzab verirəm,
Xəyalım pəjmürdə, dalğın görünür.

Alim də, şair də səni gözləyir.
Neçə Qəribçilər səni izləyir.
Könlüm sənsizlikdən çox sızıldayır,
Bu sevgi, bu istək coşqun görünür.

Fəxrəddin, min illər sevgi köhnəlmir,
Hər insan qəlbinə qonaq da gəlmir.
Eşqə mübtəlalar yatıb, dincəlmir,
Sevib-sevilənlər vurğun görünür.

Türküstan.- 2024.- 5-18 noyabr, №42.- S.15.